Unudulmaz incə rübablı şair

Bir neçə gün əvvəl kədərləndirici bir xəbər bütün sosial şəbəkələrdə yayıldı.

Görkəmli şair, 1981-ci ildən AYB-nin üzvü, Mikayıl Müşfiq, Rəsul Rza, "Qızıl Qələm" və bir çox media mükafatlarına layiq görülmüş, ADPU-da 50 il müəllim, baş müəllim, dosent işləyərək tələbələrin vətənpərvər ruhunda böyüməsində əvəzsiz xidmətləri olmuş Oqtay Rza ömrünün 85-ci ilində dünyasını dəyişmişdir.

Rzalı Oqtay Məhərrəm oğlu (Oqtay Rza) 1934-cü ilin noyabr ayının 2-də Azərbaycan Respublikasının Salyan rayonunun Qalalı kəndində anadan olmuşdur. Arbatan kənd yeddiillik məktəbini bitirib Salyan şəhərindəki Nizami adına orta məktəbdə 1948-1951-ci illər də təhsilini davam etdirmişdir.

1951-1956-cı illərdə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib geoloq ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə Bayıl qəsəbəsindəki Neft və Qazçıxarma İdarəsinin 5 saylı mədənində başlamışdır. Əvvəl operator, baş operator, sonra isə neftçıxarma ustası olmuşdur. Sonralar elmi fəaliyyətini davam etdirərək geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Oqtay Rza 1980-ci ildə Azərbaycan KP MK yanında Marksizim-Leninizm Universitetini fərqlənmə diplomu ilə bitirmişdir.

Gənc yaşlarından ədəbiyyata marağı böyük olmuş, işlədiyi ağır neftçi həyatından silsilə şeirlər yazmış və dövri mətbuatda çap olunmağa başlamışdır.

1966-1971-ci illər ərzində N.Tusi adına APİ-nin Ümumi coğrafiya kafedrasında müəllim, baş müəllim və ömrünün sonuna qədər dosent vəzifəsində ləyaqətlə çalışmış, pedaqoji kollektiv arasında böyük hörmət qazanmışdır.

1956-60-cı illərdə Bakı şəhər sovetinin deputatı seçilmiş, fəal ictimaiyyətçi olaraq nüfuz sahibi olmuşdur. 1961-ci ilin noyabr-dekabr aylarında Ümumdünya Həmkarlar İttifaqları Təşkilatının Moskvada keçirilən 5-ci konqresində sovet nümayəndə heyətinin tərkibində iştirak etmişdir.

"Bir may" adlı ilk şeirini yeddiillik məktəbdə oxuyarkən yazıb "Sosializm yolu" rayon qəzetində dərc etdirmişdir. Həmin vaxtdan poetik yaradıcılıqla müntəzəm məşğul olur, bədii tərcümələr də edirdi. Dünya xalqlarının ədəbiyyatından tərcümələri dövri mətbuatda müntəzəm çap olunur, əsərləri xarici mətbuatda da işıq üzü görür.

Oqtay Rzanın "Kamennıy svetilnik" şeirləri toplusu 1987-ci ildə Moskvada kütləvi tirajla buraxılmış və müəllifə şöhrət qazandırmışdır.

Oqtay Rza rübai ustası olaraq daha çox məşhurlaşmışdır. Şairin 1970-ci ildə "Torpağı dinləyirəm", 1975-ci ildə "Ürəyimi oxuyun", 1980-ci ildə "Hara gedirəmsə", 1981-ci ildə "Yasəmən çiçəkləyəndə", 1983-cü ildə "Daş çırağın işığında", 1986-cı ildə "Fəsil dəyişəndə", 1991-ci ildə "Günəşin adından", 1993-cü ildə "Vətən, yas saxlama", 1999-cu ildə "Adlı, ünvanlı misralar", 2001-ci ildə "Seçilmiş sətirlərim", 2004-cü ildə "Dördlüklər", 2011-ci ildə isə "Rübai karvanı, dördlük çələngi" şeirlər kitabı sağlığında işiq üzü görmüşdür.

Güclü hafizəyə, yaddaşa malik olan Oqtay Rza saatlarla öz şeirlərini əzbər söyləyərdi.

Ustad şairlə dəfələrlə cəbhə bölgələrində, əsgər və zabitlər qarşısında, Yazıçılar Birliyində və digər tədbirlərdə olmuş, onun alovlu, vətənpərvər çıxışlarını dinləmişəm.

Qarabağ və ona bitişik ətraf rayonlarımızın işğalı onu çox kədərləndirər, bir-birindən təsirli şeirləri ilə dövri mətbuatda müntəzəm olaraq çıxış edirdi. Oqtay Rza haqqında keçmiş zamanda danışmaq bizdə çox ağrılı hisslər oyadır. Çünki hansı tədbirdə olurdumsa, Oqtay Rza o tədbirə qatılır, məclisi ələ alır və çıxışları alqışlarla qarşılanardı.

Bir çox qəzetlərlə əməkdaşlıq edər, ardıcıl, düşündürücü şeirləri ilə oxucuların qəlbində yol açardı. Ömür vəfa etsəydi, noyabrın 2-də 85 yaşlı incə rübablı şairin yubileyi təntənəli keçiriləcəkdi. Oqtay Rza o günün həyəcanı ilə yaşayırdı.

Həyat eşqi, gənclik ehtirası ilə yazıb-yaradan şairi amansız ölüm bizdən ayırsa da, onun böyük əməlləri, zəngin poetik irsi unudulmayacaq, doğma, qədirbilən xalqın qəlbində əbədiyaşar olacaqdır.

Rauf İLYASOĞLU,
şair-publisist,
"Həkəri" qəzetinin baş redaktoru.